# Nəsimi yaradıcılığı Azərbaycan ədəbiyyatında xüsusi mərhələ təşkil edir

Binəqədi Rayon İcra Hakimiyyəti, Yeni Azərbaycan Partiyası Binəqədi rayon təşkilatı və rayon Gənclər və idman idarəsinin birgə təşkilatçılığı ilə keçirilən "Nəsimi dühası - 650 il" adlı layihə çərçivəsində növbəti təqdimat baş tutub.

"İdrak" liseyinin təşkilatçılığı ilə keçirilən tədbir dahi Azərbaycan şairi İmadəddin Nəsimiyə həsr olunmuş filmin nümayişi ilə başlayıb. Sonra şagirdlərin ifasında Nəsiminin yaradıcılığında yer alan və şairə həsr olunmuş müxtəlif qəzəllər, musiqilər ifa edilib, kompozisiyalar nümayiş etdirilib. Həmçinin şagirdlər liseyin musiqi müəllimi, gənc bəstəkar Məhərrəməli Əlişanovun Nəsiminin "Sığmazam" qəzəlinə bəstələnən romansını canlı ifa ediblər.

Tədbirdə "İdrak" liseyinin təsisçisi, pedaqoji elmlər doktoru, professor Mönsüm Alışov çıxış edərək bildirib ki, orta məktəblərdə bu cür tədbirlərin keçirilməsi şagirdlərin hərtərəfli yetişməsində, onların maarifləndirilməsində olduqca mühüm rol oynayır.

Daha sonra tədbirdə çıxış edən Azərbaycan Yazıçılar Birliyinin İdarə Heyətinin üzvü, Prezident təqaüdçüsü, ədəbi tənqidçi, şair Əsəd Cahangir bildirib ki, Nəsimi Azərbaycan xalqının ümumbəşər mədəniyyətinə bəxş etdiyi qüdrətli söz ustalarındandır: "O, Şərqin zəngin mədəni-mənəvi sərvətləri üzərində ucalmış və bədii söz sənətinin son dərəcə qiymətli incilərini meydana gətirmişdir. Şair yaradıcılığı dərin poetik fikirlərlə fəlsəfi görüşlərin vəhdətində olub, dövrün elmi-fəlsəfi düşüncəsinin aydın ifadəçisinə çevrilmiş müstəsna əhəmiyyətli ədəbi irsi qədim köklərə və çoxəsrlik ənənələrə malik Azərbaycan ədəbiyyatı tarixində xüsusi mərhələ təşkil edir".




YAP Binəqədi rayon təşkilatının sədri Ramiz Göyüşov çıxışında bildirib ki, İmadəddin Nəsimi təkcə Azərbaycan üçün deyil, bütün dünya üçün böyük mütəfəkkir, istedadlı şəxsiyyətdir: "Onun yaradıcılığı dünya poeziyasına mühüm töhfədir. Böyük filosof şair İmadəddin Nəsimi Azərbaycan ədəbiyyatı tarixində bədii- fəlsəfi şeirin özülünü qoymuş, bədii söz sənətimizi forma və məzmunca zənginləşdirmiş söz ustadıdır. Şairin yaradıcılığı nəinki Azərbaycan ədəbi mühitinin formalaşmasına, eləcə də ümumbəşəri dəyərləri, insanın fövqəlbəşəri varlıq olmasını tərənnüm etməklə dünya ədəbiyyatına böyük təsiri olub. Çünki Nəsimi bütün bəşəriyyəti öz yaradıcılığı ilə əsərlərində ifadə etməyi bacaran dahi şair və mütəfəkkirdir. Bu baxımdan ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən 2019-cu ilin "Nəsimi İli" elan edilməsi haqqında Sərəncam imzalanması təsadüfi deyil. "Nəsimi İli" çərçivəsində ölkəmizin hər bir yerində, o cümlədən Binəqədi rayonunda da silsilə tədbirlər keçirilir və Nəsiminin əziz xatirəsi ehtiramla yad edilir".

Sonda tədbirdə muğam üçlüyünün müşayiəti ilə musiqi nümunələri səsləndirilib və tədbir iştirakçıları "İdrak" liseyinin şagirdlərinin əl işlərindən ibarət rəsm sərgisinə baxıblar.

**Taleh Bağırov,**
***"İki sahil"***



İki sahil.- 2019.- 7 noyabr.- S.11.